BAHADUR EYVAZOV

# ŞUŞA KURORTU



*REDAKTOR:* Əlirza BALAYEV

**Bahadur Əsgər oğlu Eyvazov. Şuşa kurortu.**
"Nurlan" nəşriyyat-poliqrafiya müəssisəsi.
Bakı, 2008, - 72 səh.

**Eyvazov B. Ə. Şuşa kurortu.** Bu kitab görkəmli şəxsiyyət – tibb elmləri doktoru, əməkdar elm xadimi, professor Bahadur Eyvazovun 1958-ci ildə çapdan çıxmış "Şuşa kurortu" kitabının ikinci nəşridir. Kitabda Şuşa, onun təbii müalicə sərvətləri haqqında geniş və dərin məlumat verilir, Şuşanın dünyadakı müvafiq kurortlardan üstünlüyü müəllifin özünün apardığı, həmçinin digər tədqiqatların nəticələri ilə sübuta yetirilir. Kitab cüzi ixtisar edilmiş, dil və üslub cəhətdən yenidən redaktə olunmuşdur.

$\frac{4702000000}{N-098-2008}$ *Qrifli nəşr*

© «Nurlan», 2008

# ÖN SÖZ

Tibb elmləri doktoru, əməkdar elm xadimi, professor Bahadur Eyvazovun 1958-ci ildə çapdan çıxmış "Şuşa kurortu" kitabının ikinci nəşrinin oxuculara təqdim olunması təsadüfi deyil, bəlkə də zamanın tələbidir.

Birincisi ona görə ki, Bahadur Eyvazovun yazdığı kimi, "Birtipli kurortlar fərdi xüsusiyyətlərə malik olur və həmin xüsusiyyətləri həmişə saxlayır. Şuşa da özünə oxşar iqlim kurortları arasında təbiətin ona səxavətlə bəxş etdiyi xüsusiyyətləri, öz müalicə xassələrini saxlayır və bu xüsusiyyətlər Şuşanın fərqlənməsinə səbəb olaraq ona ən geniş əhali kütlələri arasında ləyaqətli şöhrət qazandırır." Yəni, 50 il əvvəl çap olunmuş kitabda dünya əhəmiyyətli kurort kimi Şuşaya aid yazılanların hamısı bu gün də əhəmiyyətini saxlayır.

İkincisi ona görə ki, Azərbaycanın necə bir "gövhər" – B. Eyvazov Şuşanı belə adlandırır və yazırdı ki, "təbii müalicə sərvətlərinin bu cür nadir tərzdə bir yerdə toplaşması misli görünməyən hadisədir" – guşəsinin erməni istilasında olduğunu hər bir azərbaycanlının, xüsusən gənclərin dərindən dərk etməsi üçün onların Şuşa haqqında daha zəngin məlumata malik olması zəruridir. Kitabın yeni nəşrini aktual edən də bu mühüm cəhətdir.

Azərbaycanın müalicə əhəmiyyətli təbii sərvətlərinin xalqın istifadəsinə verilməsi məsələsi B. Eyvazovun ictimai elmi-praktik fəaliyyətində mühüm yer tuturdu. O, 1949-cu ildən etibarən respublikanın iqlim-balneoloji problemlərinə ciddi diqqət yetirməyə başlamışdı.

B.Eyvazov söhbət və mühazirələrində, məruzə və çıxışlarında böyük qürur hissi ilə dönə-dönə qeyd edirdi ki, təbiət heç nəyi torpağımızdan əsirgəməmişdir. Azərbaycanın ərazisi füsunkar, valehedici mənzərələri, müxtəlif iqlim qurşaqları, rəngarəng flora və fauna ilə zəngindir. Əgər biz ərazimizə bir əczaçı gözü ilə baxsaq, onun